**Fridrix Nitsşe**

# ZƏRDÜŞT BELƏ SÖYLƏDİ

Hamı və heç kim üçün bir kitab

Almancadan tərcümə:
Fəxrəddin Veysəlli,
Müttəlif Səfərov

**Friedrich Nietzsche**

# ALSO SPRACH ZARATHUSTRA

Ein Buch Für Alle Und Keinen

Dahi Nitsşenin bu mühüm əsəri forma və məzmununa görə fəlsəfi deyil, bədii əsərə oxşayır. Zərdüşt düşünülmüş obrazdır. Onun adı Şərq müdrikliyi ilə əlaqəlidir. Zərdüştün fəlsəfəsində məntiqi arqumentdən çox müdriklik var. O bu müdrikliyi aforistik yolla elan edir. Bəs Nitsşe niyə ona müraciət edir? İki minillik tarixi olan Qərb fəlsəfəsini qoyub, niyə məhz Sokratdan əvvəlki dövrə gedib çıxır? Çünki "Nitsşe həqiqəti" bu yolla zamanın fövqünə qalxa bilir. O həqiqətə yalnız bu yolla varmaq olar.

**Friedrich Nietzsche** **ALSO SPRACH ZARATHUSTRA**
**Fridrix Nitsşe** **ZƏRDÜŞT BELƏ SÖYLƏDİ**
Bakı, Qanun Nəşriyyatı, 2023, 448 səh.

Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 24.10.2023

Almancadan tərcümə: Fəxrəddin Veysəlli,
Müttəlif Səfərov
Ön sözün müəllifi
və elmi redaktor: Fəxrəddin Veysəlli
Redaktor: f.ü.f.d. İ.Əliyeva
Korrektor və
texniki redaktor: Əsəd Qaraqaplan
Dizayn: Ramil Akifoğlu
Rafael Qasım

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-26-613-9

© Qanun Nəşriyyatı, 2020; 2022; 2023
© Stuttgart, 1994

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları
Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri
"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında"
Azərbaycan Respublikasının qanununa ziddir.



Friedrich Nietzsche

# İÇİNDƏKİLƏR

Zərdüştün ön sözü
F.Nitsşe və onun "Zərdüşt belə söylədi" əsəri haqqında ............ 13

Birinci hissə

Zərdüşt belə söylədi ............ 29
Zərdüştün söylədikləri
Üç çevrilmə barəsində ............ 53
Səxavətin kafedraları haqqında ............ 56
Tərki-dünyalar haqqında ............ 60
Bədənə nifrət edənlər barədə ............ 64
Sevinc və kədər haqqında ............ 67
Bənizi qaçmış cani haqqında ............ 70
Oxu və yazı haqqında ............ 73
Dağdakı ağac haqqında ............ 76
Ölümün moizəçiləri haqqında ............ 80
Müharibə və qoşunlar haqqında ............ 83
Yeni büt haqqında ............ 86
Bazar milçəkləri haqqında ............ 90
Bakirlik haqqında ............ 94

Dost haqqında ....................................................................96
Min və bir məqsəd haqqında ..................................99
Ən yaxın sevgi barədə ...........................................102
Yaradanın yolu haqqında .....................................105
Yaşlı və cavan haqqında ........................................109
Suilanının sancması barədə .................................112
Uşaq və nikah haqqında .......................................115
Azad ölüm haqqında .............................................118
Hədiyyə verən xeyirxahlıq haqqında ..................122

## İkinci hissə

Uşaq güzgü ilə ......................................................131
Xoşbəxtlik adalarında ...........................................134
Rəhmdillər haqqında .............................................138
Keşişlər haqqında ..................................................142
Səxavətlilik haqqında ...........................................146
Tüfeyli haqqında ....................................................150
Zəhərli hörümçəklər haqqında ..............................154
Məşhur müdriklər haqqında .................................159
Gecə nəğməsi ..........................................................163
Rəqs mahnısı .........................................................166
Məzar mahnısı ........................................................170
Özünü ram edənlər haqqında ..............................174
Əzəmətlilər haqqında ...........................................179

Təhsil ölkəsi haqqında ............................................183
Ləkəsiz idrak haqqında ..........................................187
Alimlər haqqında ..................................................191
Şairlər haqqında ....................................................194
Böyük olaylar haqqında .........................................198
Uzaqgörən (Falçı) ..................................................204
Qurtulmaq haqqında ..............................................209
İnsan zəkası haqqında ............................................215
Ən sakit saat .........................................................219

## Üçüncü hissə

Səyyah ..................................................................225
Sifət və tapmaca haqqında .....................................229
İradə əleyhinə səadət haqqında .............................235
Günəşin çıxmasından əvvəl ...................................240
Kiçilən səxavət haqqında .......................................244
Neft dağında ..........................................................251
Gəlib keçənlər haqqında ........................................255
Dönüklər haqqında .................................................259
Qayıdış ..................................................................264
Üç şər qüvvə haqqında ...........................................269
Ağırlıq ruhu haqqında ............................................275
Köhnə və təzə lövhələr haqqında ..........................281
Sağalan ..................................................................305

Böyük həsrət haqqında ....................................313
Başqa bir rəqs mahnısı ....................................317
Yeddi möhür ....................................322

## Dördüncü və sonuncu hissə

Bal qurbanı ....................................329
Fəryad səsi ....................................334
Krallarla söhbət ....................................339
Zəli ....................................344
Sehrbaz ....................................348
İstefada ....................................356
Ən yaramaz insan ....................................362
Könüllü dilənçi ....................................368
Kölgə ....................................373
Günorta vaxtı ....................................378
Salamlama ....................................382
Axşam yeməyi ....................................389
Yüksək insan haqqında ....................................392
Həsrət nəğməsi ....................................406
Elm haqqında ....................................413
Səhra qızları arasında ....................................417
Oyanış ....................................425
Eşşəyin bayramı ....................................430
Ayda gəzənin mahnısı ....................................435
Əlamət ....................................445

# Zərdüştün
# ön sözü

# F.Nitsşe və onun ”Zərdüşt belə söylədi” əsəri haqqında

# I

Böyük alman filosofu Fridrix Nitsşe (1844-1900) 4 yaşında ikən atasını itirir və anasının himayəsində yaşayaraq əla tərbiyə alır. Gənc yaşlarından o, humanitar sahəyə, xüsusilə də, musiqiyə meyilli olur. Əvvəlcə teologiya, sonra isə Bonn universitetində klassik filologiya ilə məşğul olur. 1865-ci ildə Leypsiqə köçən F.Nitsşe orada A.Şopenhauerlə və R.Vaqnerlə tanış olur. Diplom müdafiəsindən sonra o, Riçelin əlaçı tələbəsi kimi Bazel universitetində klassik filologiya ixtisası üzrə fövqəladə professor kimi işə başlayır. Burada o, yunan ədəbiyyatı tarixindən və latın qrammatikasından mühazirələr oxuyur. Bu da ona dil fəlsəfəsilə yaxından məşğul olmağa imkan verir.

Bazeldə F.Nitsşe Y.Burkhardt və teoloq F.Overbeklə tanış olur. Bazel fəaliyyətinin nəticəsi olaraq 1872-ci ildə onun ilk böyük əsəri “Musiqinin ruhundan faciənin doğuşu” yaranır. Bu əsərdə F.Nitsşe musiqini dil fəlsəfəsilə bağlı götürür, onu insanın ən əzəmətli ifadə vasitəsi – protodil (ilkin dil) adlandırır. A.Şopenhauer ruhunda yazılmış bu əsərdə F.Nitsşe musiqini olumun, şeylərin, ən ulu varlığın əsası kimi götürərək şərh edir. O zaman bu əsər spekulyativ-fəlsəfi meyilli olduğundan yaxşı qarşılanmadı, ancaq o, F.Nitsşenin tanınmasına güclü təkan verdi.

Sonralar F.Nitsşe dil nəzəriyyəsilə yaxından tanış olur, xüsusilə də Herderin və romantiklərin təsirilə “dili incəsənət kimi” öyrənir. Bu axtarışlarını o, “Əxlaqdan kənar

anlamda həqiqət və yalan haqqında" adlı əsərində (1873) ümumiləşdirir, ancaq onu heç vaxt çap etdirmir. Bu əsərdə o, fəlsəfi-elmi məfhumun süni metaforik məfhumdan öncə həqiqətə söykənmiş olmasını göstərir. Ancaq onda həqiqət axtarışı irrelevantdır və buna görə də estetik vəziyyət ön plana keçir.

F.Nitsşenin sonrakı əsəri "İnsanlıq, həddən artıq insanlıq" adlanır və "Azad ruhlar üçün kitab" adı altında çap olunur.

F.Nitsşe 34 yaşında təqaüdə çıxmaq məcburiyyətində qalır. Miqren, baş gicəllənməsi və qusma ona rahatlıq vermir. 1879-cu ildən İsveçrədə, İtaliyanın şimalında, Portofino, Venesiya, Siciliya, nadir hallarda isə Almaniyada yaşayır. Onun "Dan yeri sökülən vaxt" (1881), "Şən elm" (1882), "Zərdüşt belə söylədi" (1883, 1884, 1885), "Xeyir və şərin o tərəfində" (1886), "Mənəviyyatın genealogiyasına dair" (1887), "Vaqner halı" (1888), "Antixrist" (1889), "Nitsşe kontra Vaqner" (1889) kimi əsərləri vardır.

F.Nitsşse ömrünün son 11 ilini çox ağır huşsuzluq şəraitində keçirdir. O, həmişə atasının huşsuz vaxtlarını xatırlayır və özünün uşaqlıq illərinə dəyən mənəvi zərbələri heç vaxt unutmur. Elə bu illərdə F.Nitsşe Avropada şöhrət qazanır. Ancaq artıq gec idi. 25 avqust 1900-cü il tarixdə öz doğuluşu ilə nifrət elədiyi xristianlığın təbliğatçısı və mühafizəçisi olan F.Nitsşe vəfat edir.

## II

Adətən, F.Nitsşenin yaradıcılığını 3 dövrə bölürlər: birinci dövrdə (1872-1876) o, A.Şopenhauerin və R.Vaqnerin ideyalarının təsiri altında olur. Bu dövrdə o, "Faciənin törəməsi və ya Ellinlik və pessimizm" və "Vaxtsız düşün-

cələr" əsərlərini qələmə alıb. Onun ikinci dövrdə yaradıcılığı (1877-1882) təbiət elmlərinə və pozitivizmə meylilə səciyyələnir. Bu dövrdə o, "İnsanlıq, həddən artıq insanlıq", "Dan yeri sökülən vaxt" və "Şən elm" əsərlərini yazır. Üçüncü dövrdə isə (1883-1888) "Zərdüşt belə söylədi", "Xeyir və şərin o tərəfində", "Mənəviyyatın genealogiyası", "Antixrist", "Esse houm" və monumental şəkildə düşünülən, lakin tamamlanmayan "Hakimiyyətə iradə" əsərlərini yazmışdır.[1]

Əlbəttə, bu bölgü nisbidir, ikinci və üçüncü dövr arasında elə bir ciddi fərq yoxdur. Onun əsərlərində elə bil həmişə Dionis allahının və Zərdüşt peyğəmbərin, fövqəlinsan və Vaqnerin Ziqfrid obrazları ikiləşir, "Hakimiyyətə iradə" isə müasir mədəniyyətdə daima ifadə olunan "ölümə irad"yə yeganə alternativ kimi qalib gəlir"[2].

"Zərdüşt belə söylədi" əsəri filosofun ən mühüm əsəri sayılır. Formasına və məzmununa görə bu əsər fəlsəfi əsərə oxşamır. Adətən ədəbiyyatı peşə və fiksiya növlərinə böləndə fəlsəfi əsərləri peşə ədəbiyyatına daxil edirlər. Fəlsəfə fiksiya olmaq istəmir. Platon fiksiya olan mifik ədəbiyyata qarşı məntiqi ədəbiyyatı qoyurdu. Məntiqi düşüncə həqiqətə gedən yolu müəyyənləşdirir. Ancaq F.Nitsşenin "Zərdüşt belə söylədi" əsərini fiktiv ədəbiyyata aid etmək olar.[3]

Zərdüşt düşünülmüş obrazdır. Onun adı Şərqdə müdriklik təlimi ilə bağlıdır, onun fəlsəfəsində məntiqi arqumentdən çox müdriklik var və bu müdrikliyi o, aforistik yolla elan edir. Bəs F.Nitsşe niyə ona əl atır? İki minillik tarixi olan Qərb

[1] М.А.Блюменкранц. Рождение философии из духа трагедии. В кн.: Антология мысли. Фридрих Ницше. По ту сторону добра и зла. М., Мысль, 1999, стр. 6.
[2] Yenə orada, s. 6.
[3] J.Simon. Nachwort. F.Nitsche. Also sprach Zarathustra, Stuttgart, 1994, s. 347.